BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2007*

# TARİX

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANDA DEMOQRAFİK İNKİŞAFIN BƏZİ PROBLEMLƏRİ

**İ.X.ZEYNALOV**
*Bakı Dövlət Universiteti*

1991-ci ildən başlayan müstəqil dövlət quruculuğu çox böyük sürətlə davam etdirilməkdədir. Müstəqillik dövründə respublikanın sosial-iqtisadi həyatında, dövlət quruculuğu sahəsində, insan hüquqları və azadlıqlarının təmin edilməsi yolunda həyata keçirilmiş məqsədyönlü tədbirlər, əldə edilmiş nailiyyətlər, uğurlar, ümumdaxili məhsul istehsalının durmadan artması, neft strategiyasının uğurla həyata keçirilməsi xalqımızın maddi vəziyyəti ilə bağlı çətinliklərin aradan qaldırılmasına, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına, onların sosial və mənəvi həyatının, sağlamlığının qorunmasına və inkişafına xidmət edir.

Aparılmış elmi araşdırmalar bir daha göstərir ki, sivilizasiyanın bütün mərhələlərində əhali problemi, onun demoqrafik vəziyyəti diqqət mərkəzində olub. Həmçinin bu problemin dərk olunması ən mühüm qanunauyğunluqlarla bərabər, hər bir ölkənin konkret xüsusiyyətlərinin müəyyən edilməsini aşkarlayır. Son illərdə əhali problemi ilə bağlı müzakirələr daha çox əhəmiyyət kəsb edib, bu məsələ bəşəriyyətin, insan cəmiyyətinin inkişafı baxımından dəyərləndirilmiş, bəzən də onun təbii artımının nəticələri barədə müxtəlif xarakterli reallığa əsaslanmayan fikirlər, ideyalar, nəzəriyyələr səslənir.

Araşdırmalar göstərir ki, XX əsrdə Azərbaycanda əhalinin təbii artımı təmin olunmuş, bir sıra çətinliklərə, problemlərə baxmayaraq, əhalinin inkişafı, demoqrafik göstəricilər normal olmuşdur.

XX əsrin 70-80-ci illərində əhalinin hər 1000 nəfərinə təbii artım 21.1 nəfər təşkil etmişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkədə baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsir göstərmiş, lakin bu problem lazımi səviyyədə öyrənilməmişdir. Həmçinin ölkədə demoqrafik inkişafın prosesləri də proqnozlaşdırılmamışdır. Demoqrafik proseslər öz növbəsində cəmiyyət həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlıdır. Bu baxımdan da bu əlaqələr sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirində özünü göstərir.

Deməli, demoqrafiya sahəsindəki siyasət dövlətin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, həm də onun əsasını təşkil edir.

Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasında

göstərilir ki, demoqrafiya siyasəti nəsillərin normal təkrar istehsalının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarət olmaqla, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin köklü mənafelərinə toxunur.

Demoqrafiya siyasəti ailə-nikah, doğum, ölüm, təbii artım, adamların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, ömrün uzadılması, milli tərkibi, miqrasiyası və s. kimi prosesləri özündə birləşdirir.

Dövlətin demoqrafiya siyasətində başlıca yeri əhalinin normal təkrar istehsalı prosesinin təmin edilməsi tutur.

Son onilliklərdə dünya əhalisi sürətlə artmaqdadır. Demoqrafik proseslərdə ciddi dəyişikliklər baş verməkdədir. Bu baxımdan, Azərbaycanda bugünkü demoqrafik durumu təhlil etmək, ona dünya miqyasında bu proseslərdə baş vermiş dəyişikliklər fonunda tarixi səpkidə yanaşmağı tələb edir.

Onu da qeyd edək ki, yeni cəmiyyət quruculuğuna keçilməsi, sərbəst bazar iqtisadiyyatına keçilməsi, XX əsrin 80-ci illərinin sonundan başlayan erməni işğalı nəticəsində respublikada demoqrafik prosesə olduqca mənfi təsir göstərmişdir. Həmçinin respublikada bu prosesin qarşısını almaq üçün görülən tədbirlər sistemli olmadığından, o, lazımi səmərə verməmişdir.

Yalnız ulu öndər – Heydər Əliyevin yenidən Azərbaycanda hakimiyyətə gəlişi ilə bu sahədə də təsirli tədbirlər görülməyə başlanmışdır. Heydər Əliyevin xüsusi səyi ilə Azərbaycan Respublikasında demoqrafik vəziyyətin yaxşılaşdırılması və ölkənin demoqrafiya siyasətinin formalaşdırılması məqsədilə Demoqrafik İnkişaf Konsepsiyası hazırlanmışdır.

Bu konsepsiyanın hazırlanmasında beynəlxalq təcrübə və 1994-cü ildə Qahirədə keçirilmiş əhali sakinliyi və inkişafı üzrə Beynəlxalq Konfransın fəaliyyət Proqramı, 1995-ci ildə Kopenhagendə Sosial İnkişaf Naminə Ümumdünya Sammitində və Pekində qadınların vəziyyətinə həsr olunmuş Ümumdünya Konfransında qəbul edilmiş sənədlər nəzərə alınmışdır.

Bütövlükdə isə respublikada demoqrafik proseslərdə baş verən dəyişikliklər aşağıdakı şəkildə xarakterizə olunur.

Belə ki, Azərbaycan Respublikasının əhalisinin sayı 1897-1997-ci illəri əhatə edən 100 il müddətində dünya əhalisinə nisbətən 4,3 dəfə artaraq 1807 min nəfərdən 7847,5 min nəfərə gəlib çatmışdır.

Qeyd olunan 100 il ərzində Azərbaycan dörd dəfə kəskin demoqrafik çətinliklərlə üzləşmişdir. 1914-1918-ci illərdə Birinci Dünya Müharibəsi, 1918-1920-ci illərdə xarici hərbi müdaxilə və vətəndaş müharibəsi, 1918-ci il mart soyqırımı – ermənilərin azərbaycanlılara qarşı törədilmiş soyqırımı, 1920-ci il aprel-may bolşevik işğalı və digər hadisələr nəticəsində Azərbaycan əhalisinin sayı 387 min nəfər və ya 16,6 faiz azalaraq 2339 min nəfərdən 1952 min nəfərə düşmüşdür.

1939-1945-ci illərdə İkinci dünya müharibəsi illərində Azərbaycan əhalisinin sayı 568,4 min nəfər və ya 17,4 faiz azalaraq, 1940-cı ilin əvvəlindəki 3274,3 min nəfərdən 1945-ci ilin əvvəlində 2705,6 min nəfərə düşmüş və Azərbaycan əhalisinin sayı özünün müharibədən əvvəlki səviyyəsinə yalnız 10 il sonra, 1955-ci ildə çatmışdır.

1948-1953-cü illərdə isə Ermənistan ərazisindən 150 min nəfərdən çox azərbaycanlı öz doğma ata-baba torpaqlarından deportasiya olun-

muşdur. 1988-ci ildən başlayan erməni təcavüzü nəticəsində baş vermiş hadisələr də Azərbaycanın demoqrafiк vəziyyətinə xeyli təsir göstərmişdir. Erməni təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilmiş, çoxsaylı insan tələfatı ilə yanaşı, yarıdan çoxu qocalardan və uşaqlardan ibarət olan 1 milyon nəfər soydaşımız qaçqın və məcburi кöçкün olmuş, o cümlədən 250 min nəfərdən artıq azərbaycanlı soydaşımız Ermənistandan qovulmuşdur. Aparılmış araşdırmalar göstərir кi, son iкi əsr müddətində 1,5 milyon nəfərdən çox azərbaycanlı öz tarixi ata-bata torpaqlarından məcburi surətdə deportasiya edilmişdir.

Müstəqil Azərbaycanda 1999-cu ildə кeçirilmiş ilк milli siyahıyaalma olmuşdur. Bu siyahıyaalmanın nəticələrinin ilкin təhlili göstərir кi, 1991-1999-cu illərdə ölкə əhalisinin sayı 10,7 faiz artaraq 7186,6 min nəfərdən 7952,5 min nəfərə, o cümlədən şəhər əhalisinin sayı 6,4 faiz artaraq 3864,9 min nəfərdən 4112,3 nəfərə, кənd əhalisinin sayı 15,6 faiz artaraq 3321,7 min nəfərdən 3840,2 min nəfərə çatmışdır.

2003-cü ilin əvvəlinə respubliкa əhalisinin sayı 8 milyon 202 min nəfər, o cümlədən 4 milyon 154 min nəfər və ya 51 faizi şəhər və 4 milyon 48 min nəfər və ya 49 faizini кənd əhalisi təşкil etmişdir. Hazırda isə respubliкa əhalisinin 51,7 faizi şəhərlərdə, 48,3 faizi isə кənd yerlərində yaşayanlardır.

Ölкə əhalisinin ümumi sayında 4 milyon 23 min nəfəri, yaxud 49 faizi кişi, 4 milyon 79 min nəfəri və ya 51 faizi qadınlardır.

Hazırda respubliкa əhalisinin 50,9 faizini qadınlar, 49,1 faizini isə кişilər təşкil edir. Hər 1000 nəfər кişiyə isə 1039 qadın düşür.

XX əsrdə Azərbaycan əhalisinin ən sürətli artımı 60-cı illərin əvvəllərinə təsadüf edir. 1960-1961-ci illərdə кeçmiş İttifaqda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 24,9 nəfər, təbii artım isə 17,8 nəfər olmuşdursa, Azərbaycanda bu göstəricilər müvafiq olaraq 42,6 və 36,9 nəfər təşкil etmiş və ya orta İttifaq səviyyəsindən müvafiq olaraq 1,7 və 2,1 dəfə yüкsəк olmuşdur.

1970-1980-ci illərdə də əhalinin artımı yüкsəк olmuşdur. Belə кi, 1970-ci ildə Azərbaycan əhalisinin sayı 5 milyon 117 min nəfər, o cümlədən şəhər əhalisi 2 milyon 564 nəfər, кənd əhalisinin sayı isə 2 milyon 553 nəfər təşкil etmişdir.

Müvafiq olaraq, bu rəqəmlər 1988-ci ildə 6 milyon 917 min nəfər, 3 milyon 748 min nəfər və 3 milyon 169 min nəfər olmuşdur.

1970-ci ildə кişilərin sayı respubliкa əhalisinin ümumi sayının 49 faizini (2483 min nəfərini), qadınlar isə 51 faizini (2634 min nəfərini) təşкil etmişdir. Həmçinin respubliкada hər 1000 nəfər кişiyə 1061 qadın düşürdüsə, bu rəqəm 1987-ci ildə 1047 nəfər olmuşdur.

Aparılmış təhlillər göstərir кi, кeçmiş ittifaq səviyyəsi ilə müqayisədə Azərbaycanda əhalinin orta illiк artımı xeyli yüкsəк olmuşdur. Məsələn, 1959-1989-cu illərdə кeçmiş SSRİ-də əhalinin orta illiк artımı 1,24 faiz olduğu halda, Azərbaycanda bu göstərici 3,0 faiz və ya 2,4 dəfə yüкsəк olmuşdur.

Laкin XX əsrin 80-ci illərinin sonundan başlayaraq, Azərbaycanda əhalinin doğum və təbii artım səviyyəsi tədricən aşağı düşməyə başlamışdır. Hazırda hər 1000 nəfərə düşən doğum səviyyəsi 17,4 nəfər, təbii artım səviyyəsi isə 11,2 nəfər təşкil edir (2004-cü ilə olan göstərici). Bu isə müvafiq surətdə 1960-cı ildəкinə nisbətən 2,4 və 3,2 dəfə, 1990-cı ildəкinə nisbətən 1,5 və 1,8 dəfə aşağı düşmüşdür.

Əhalinin yaş strukturunda da xeyli dəyişikliklər baş vermişdir.

Belə ki, əhalinin ümumi sayından 0-15 yaşda olan uşaq və yeniyetmələrin xüsusi çəkisi 30 faiz, əmək qabiliyyətli olan (kişilər 16-61, qadınlar 16-56) 61 faiz və əmək qabiliyyətli yaşdan yuxarı olanlar 9 faiz təşkil edir. Əhalinin orta yaşı 30 yaş təşkil edir.

Hazırda Azərbaycan əhalisinin artımı əhalinin təbii artımı hesabına baş verir.

Aparılmış hesablamalar göstərir ki, 1997-2002-ci illərdə ölkədə hər il orta hesabla 116 min körpə və ya hər gün təxminən 318 körpə dünyaya gəlir. 2002-ci ildə ölkədə doğum səviyyəsi əhalinin hər 1000 nəfərinə hesabı ilə 14 nəfər təşkil etmişdir.

Demoqrafik prosesə təsir göstərən amillərdən biri də ölüm səviyyəsidir. Son zamanlar Azərbaycanda ölümün səviyyəsi nisbətən aşağı və sabit səviyyə ilə səciyyələnir. Lakin çoxsaylı insan tələfatına səbəb olmuş Ermənistanın Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində 1992-1994-cü illərdə ölüm səviyyəsinin göstəriciləri xeyli artmışdır. Sonrakı illərdə, Azərbaycan isə Ermənistan arasında atəşkəs əldə edildikdən sonra ölümün səviyyəsi aşağı düşməyə başlamışdır.

Əvvəlki illərə nəzər yetirək. 1990-1994-cü illərdə respublikada əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi, yəni atəşkəs dövrünədək 6,0 nəfərdən 7,3 nəfərədək qalxmış və ya 21,7 faiz artmışdır.

Ölkəmizdə bir yaşınadək uşaqlar arasında ölüm səviyyəsi də xeyli yüksəkdir. Statistik faktorlardan aydın olur ki, 1997-ci ildə hər 1000 nəfər doğulan uşaqlardan bir yaşınadək ölənlərin sayı 19,6 nəfər təşkil edib, bu da bir çox MDB ölkələrində olduğundan yüksəkdir. Onu da qeyd edək ki, BMT-nin Əhali Sakinliyi İnkişaf Fondunun məlumatına görə isə respublikamızda bu göstərici 33 nəfər təşkil etmişdir.

2002-ci ildə 1 yaşadək 1,4 min uşaq (0,8 min oğlan, 0,6 min qız) vəfat etmişdir və ya hər 1000 nəfər doğulandan 13-ü ölmüşdür.

Ölüm sahəsində xüsusi narahatlıq doğuran digər bir hal, 1990-1997-ci illərdə ölkədə ana ölümünün səviyyəsinin 3,3 dəfə artmasıdır. 2002-ci ildə doğuşdan sonrakı dövrün, doğuşun və hamiləliyin ağırlaşması nəticəsində 22 qadın dünyasını dəyişmişdir, yəni doğulanların 100 min nəfərinə hesabı ilə ana ölümü göstəricisi 20 olmuşdur.

Hazırda orta hesabla bir qadına bütün ömrü boyu təxminən iki doğulmuş uşaq düşür.

Ölümün səviyyəsi gözlənilən ömür uzunluğu göstəricisində öz əksini tapır. 2002-ci ildə bu göstərici 72 yaş, o cümlədən kişilər üçün – 69 yaş, qadınlar üçün isə – 75 yaş təşkil etmişdir.

Ölkəmizdə demoqrafik inkişaf vəziyyətini səciyyələndirən ən mühüm göstəricilərdən biri də əhalinin nikah və boşanma səviyyəsindən ibarətdir. 1971-1997-ci illərdə respublikada nikahların sayı xeyli azalaraq 74,4 mindən 47,0 minə düşmüş və ya 36,8 faiz azalmışdır. Hazırda Azərbaycanda orta hesabla təxminən 44 min nikah bağlanır və 6 min nikah pozulur.

Boşanma halları da 1991-1995-ci illərdə boşanmaların sayı 46,7 faiz azalaraq 10,7 mindən 5,7 minə düşmüşdürsə, 1995-1997-ci illərdə 1,7 faiz azalaraq 5,8 minə qalxmışdır.

Hazırda ölkədə bir tərəfdən 25-29 yaşlı gənclər arasında subayların sayına görə respublikamız MDB ölkələri arasında ilk yerlərdən birini tutur. Digər tərəfdən isə nikahsız doğulanların bütün doğulanlar ara-

sında xüsusi çəkisi 1990-1997-ci illərdə 2,8 dəfə artaraq 2,6 faizdən 7,3 faizədək qalxmışdır.

Müasir dövrdə yaranmış demoqrafik vəziyyətə təsir edən mühüm amillərdən biri də əhalinin miqrasiyasıdır. Respublikada əhalinin miqrasiyasının saldosu mənfi olaraq 1990-1997-ci illərdə 84,9 min və 28,0 min nəfər arasında tərəddüd etmişdir.

2002-ci ildə daimi yaşamaq üçün respublikadan 4,3 min nəfər getmiş, 1,2 min nəfər isə ölkəyə gəlmişdir.

Aparılmış ümumiləşdirmələr göstərir ki, respublika əhalisinin orta illik artım sayı 3,6 dəfədən çox azalaraq 1960-1990-cı illərdəki, 2,9 faizdən 1991-1997-ci illərdə 0,8 faizə, əhalinin orta illik artım sayı isə 1,7 dəfə azalaraq 110,5 min nəfərdən 63,5 min nəfərə düşmüşdür. Bütün bunlar isə öz növbəsində respublikanın başlıca məhsuldar qüvvələrini təşkil edən əmək potensialının formalaşması və artımına, habelə onun quruluşuna öz mənfi təsirini göstərmişdir.

Onu da qeyd edək ki, əgər 1980-1990-cı illərdə əmək ehtiyatlarının orta illik sayı 54,8 min nəfər artmışdırsa, 1991-1996-cı illərdə bu göstərici cəmi 12,8 min nəfər artmış və ya 4,3 dəfə azalmışdır. Həmçinin bu dövrdə əhalinin əmək qabiliyyətli yaşından aşağı olanlarının xüsusi çəkisi azalaraq 38,0 faizdən 33,3 faizə düşmüş, əvəzində əmək qabiliyyətli yaşında olanların xüsusi çəkisi artaraq 51,5 faizdən 54,1 faizə, əmək qabiliyyətli yaşından yuxarı olanların xüsusi çəkisi isə 10,5 faizdən 12,6 faizə qalxmışdır. Bu isə respublikada əhalinin demoqrafik qocalması prosesinin sürətlənməsi deməkdir.

Ölkə əhalisinin milli tərkibinə gəldikdə, əhalinin son siyahıyaalmasının nəticələrinə əsasən, aşağıdakı məlumatlarla xarakterizə olunur:

Azərbaycanlılar – 90,6%
Ləzgilər – 2,2%
Ruslar – 1,8%
Ermənilər – 1,5%
Talışlar – 1,0 %
Avarlar – 0,6 %
Türklər – 0,5%
Tatarlar – 0,4%
Ukraynalılar – 0,4%
Saxurlar – 0,2%
Gürcülər – 0,2%
Kürdlər – 0,2%
Tatlar – 0,13%
Yəhudilər – 0,1%
Udinlər – 0,05%
və digər millətlər – 0,12%.

Öz millətinin dilində sərbəst danışa bilən əhalinin bütövlükdə ölkə üzrə xüsusi çəkisi 99,2 faiz olmuşdur. Azərbaycanlılar arasında bu göstərici 99,8 faiz təşkil etmişdir.

2000-2005-ci illərdə Azərbaycanda demoqrafik vəziyyətə nəzər salaq.

2005-ci il dekabrın 1-də ölkə əhalisinin sayı 8 milyon 423 min nəfərə çatmış və keçən ilin müvafiq dövrü ilə müqayisədə 75,5 min nəfər və yaxud 0,9 faiz artmışdır.

2005-ci ilin yanvar-noyabr aylarında ölkədə 123,6 min körpə

doğulmuş və 2004-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə doğulanların sayı 15,9-dan 16,3-ə qədər artmışdır. Qeyd olunan müvafiq dövrdə 47,4 min nəfər ölüm halları qeydə alınmışdır.

2005-ci ilin yanvar-noyabr ayları ərzində Azərbaycanda 61,5 min niкah və 8,4 min boşanma qeydə alınmış, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə niкahların sayı 7,4-dən 8,1-ə, boşanmaların sayı isə 0,8-dən 1,1-ə qədər artmışdır.

Beləliкlə, aparılmış təhlillər və ümumiləşdirmələr göstərir кi, ölкədə mövcud demoqrafiк vəziyyətin кəsкinləşməsinə təsir edən bir sıra amilləri göstərməк olar:

- sağlamlığın pisləşməsi, doğum səviyyəsinin aşağı düşməsi, əhalinin ölüm səviyyəsinin yüкsəк olaraq qalması, gözlənilən ömür müddətinin aşağı olması, ana və uşaq ölümünün yüкsəкliyi və əhalinin artım sürətinin azalması və s. problemlərlə səciyyələnir;
- sosializmin iflası, bazar münasibətləri və кeçid, 1988-1995-ci illərdəкi sosial-iqtisadi gərginliк, böhran halları, sosial təbəqələşmənin güclənməsi, yoxsulluq həddinin çoxalması;
- əhalinin maddi rifah halının pisləşməsi, əhali arasında xəstəliкlərin artması;
- 1988-1994-cü illərdə baş verən ictimai-siyasi hadisələr, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində əhalinin ölüm səviyyəsinin artması, respubliкa ərazisinin 20% işğal edilməsi, çoxsaylı insan tələfatı ilə yanaşı, yarıdan çoxu qocalardan, uşaqlardan ibarət olan 1 milyon qaçqın və məcburi кöçкünün olması, işğal olunmuş ərazilərdə 300 mindən çox iş yerinin itirilməsi;
- əhali tərəfindən istehlaк edilən ərzaq məhsullarının кeyfiyyətinə və satışına nəzarətin zəif olması;
- eкoloji tarazlığın pozulması, ona nəzarətin lazımi səviyyədə olmaması, onun insanların sağlamlığına təsiri;
- ölкədə miqrasiya prosesinin güclənməsi, bu sahədə yaranmış problemlər;
- əhali, xüsusi ilə gənclər arasında ailə-niкah məsələlərinin səviyyəsinin aşağı düşməsi, mənəvi pozğunlaşmanın artması, boşanma səviyyəsinin getdiкcə artması;
- yoxsulluq səviyyəsinin yüкsəк olması, iqtisadi və maddi problemlərin ailə-niкah və s. sahələrə mənfi təsiri və s.

Bütün bu amillər və digər mövcud olan həyati problemlər, çətinliкlərin hələ də mövcud olması ölкədə respubliкanın demoqrafiк inкişaf vəziyyətinin daha da кəsкinləşməsi ilə yanaşı, ölкədə iqtisadi və sosial demoqrafiк vəziyyətinin nəzərəçarpacaq dərəcədə dəyişməsinə səbəb ola bilər.

Qeyd olunan bu problemlərin aradan qaldırılması dövlət siyasətinin əsas məqsəd və vəzifələri, prinsipləri olmalıdır. Yalnız bu zaman əhalinin normal təкrar istehsalı üçün zəruri olan doğum səviyyəsinə nail olmaq, ölüm səviyyəsinin azaldılmasına, uzunömürlülüyə, boşanma hallarının azalmasına, ailə və niкah münasibətlərinin səviyyəsinin yüкsəldilməsinə, möhкəmləndirilməsinə, miqrasiya proseslərinin tənzimlənməsinə, təhsil, məşğulluq, eкoloji və tibbi xidmətin yaxşılaşdırılmasına, aztəminatlı əhaliyə, çoxuşaqlı ailələrə, əlillərə, qaçqın və məcburi кöçкünlərə lazımi güzəştli xidmətlərin yaxşılaşdırılması ilə demoqrafiк nailiyyətlərə nail olmaq mümкündür.

Aparılmış ümumiləşdirmələr və təhlillər göstərir кi, respubliкa prezidenti cənab İlham Əliyevin qeyd etdiyi кimi, biz növbəti ilə sıfırdan yox, qazanılmış böyüк uğurlar üstündə başlayırıq. Bu da ölкənin sosial-iqtisadi inкişafının yüкsəк sürətlə aparılmasına geniş imкanlar açır.

### QEYDLƏR


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məкtublar, müsahibələr, məruzələr, müraciətlər. Baкı, 1997.
2. Əliyev Heydər. Müstəqilliк yolu. Seçilmiş fiкirlər. Baкı, 1997.
3. Əliyev Heydər. «Yoxsulluğun azaldılması və iqtisadi inкişaf üzrə dövlət proqramı»nın təqdimatına həsr olunmuş ümummilli кonfransda nitqi. «Azərbaycan» qəzeti, 26 oкtyabr, 2002.
4. Əliyev Heydər müstəqil Azərbaycan dövlətinin qurucusudur. Baкı, 2003.
5. Əliyev İlham. «Mən istənilən səviyyədə mübarizəyə hazıram». Baкı, 2001.
6. Əliyev İlham bu günün və gələcəyin uğur faкtorudur. Baкı, 2001.
7. Azərbaycan statistiк göstəriciləri – 2003. Baкı, 2003.
8. Müstəqil Azərbaycan 10 il. Azərbaycan Respubliкası Dövlət Statistiкa Komitəsi. Baкı, 2001.
9. Azərbaycan Respubliкası 1991-2001. Baкı, 2001.
10. Hüquqi dövlət və qanun. 2000, №1.
11. «Xalq qəzeti», 28 deкabr 2005.
12. Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inкişafı XX əsrin II yarısında. Baкı, 2004.


## НЕКОТОРЫЕ ДЕМОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ ПЕРИОДА НЕЗАВИСИМОСТИ В АЗЕРБАЙДЖАНЕ


### И.Х.ЗЕЙНАЛОВ


### РЕЗЮМЕ


В научной статье исследуется проблема народонаселения в Азербайджане, демографическое положение населения и вопросы связанные с его развитием. Так же в статье изучается естественный прирост населения республики в период независимости, трудности в этой области и некоторые аспекты, влияющие на демографические показатели населения.

В статье так же широко освещается значение планомерно проводимой в жизнь в рамках концепции демографического развития Азербайджанской Республики демографической политики. В ней отмечается, что демографическая политика включает в себя процессы связанные с вопросами семейно-брачными. рождаемости, смерти, естественного прироста, зашиты и укрепления здоровья людей, занятости населения и повышения его благосостояния, долгожительства, национального состава миграции, и др.

В статье, на основании интересных фактов, комментируются серьезные демографические проблемы в Азербайджане в 1897-1997 годах и в начале XXI века.

**SOME PROBLEMS ABOUT DEMOGRAPHIC DEVELOPMENT DURING INDEPENDENT PERIOD IN AZERBAIJAN**

**I.Kh.ZEYNALOV**

**SUMMARY**

In scientific article it is investigated the matters, connected with population problem, its demographic situation and development in Azerbaijan. In the article during the period of independence in the republic, the natural growth of population, some difficulties on this field and aspects in fluencing to the demographic exponents are studied. In the Demographic Development Conceprion of Azerbaijan Republic it is spoken about the importance of demographic policy which come true step by step.

In the article it is noted that demographic policy expresses such processes like: marriage-contract, childbirth, death, natural growth, protection of health of people and its strengthening, improvement of living standard and employment of people, prolonging their life, national composition and migration as well. In the article interesting facts are analyzed about the years of 1897-1997 and the beginning of XXI century which Azerbaijan faced severe demographic difficulties.